# Qürurumuzun, Birliyimizin və Tarixi Ədalətin Günü

Azərbaycanın müasir tarixi çoxsaylı sınaqlardan, fədakarlıqlardan və qəhrəmanlıqlardan keçib. Lakin bu tarixin ən parlaq səhifələrindən biri, bəlkə də ən möhtəşəmi 8 noyabr 2020-ci il - Zəfər Günüdür. Bu tarixdə Azərbaycan xalqı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın davam edən işğala son qoydu, torpaqlarımızı azad etdi, ədaləti, milli ləyaqətini və qürurunu bərpa etdi.

**Qələbəyə aparan yol: Birliyin, inamın və müdrik siyasətin nəticəsi**

2020-ci ilin payızında başlayan 44 günlük Vətən müharibəsi, Azərbaycan xalqının iradəsini, milli həmrəyliyini və dövlətçilik ruhunu bütün dünyaya göstərdi. 27 sentyabr - 9 noyabr tarixləri arasında gedən döyüşlər, həm hərbi cəhətdən, həm də mənəvi baxımdan xalqımızın gücünü sübut etdi. Bu müharibə təkcə silahların deyil, həm də ədalətin, inamın və milli birliyin savaşı idi.

Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin “Qarabağ Azərbaycandır!” çağırışı altında irəliləyərək Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Şuşa və digər strateji bölgələri azad etdi. 8 noyabr 2020-ci il - Şuşanın azad olunması günü, xalqımızın yaddaşına əbədi həkk olundu. Şuşa azad ediləndən sonra düşmən məğlubiyyətini qəbul etdi və 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla Azərbaycanın qələbəsi rəsmiləşdi.

**Şuşa - Zəfərin tacı**

Şuşa Azərbaycan üçün sadəcə bir şəhər deyil, milli kimliyimizin, mədəniyyətimizin, musiqimizin beşiyi, qürurumuzun rəmzidir. 28 il işğal altında qalan bu müqəddəs torpağın azad edilməsi ilə xalqımızın sarsılmaz iradəsi və igid ordumuzun şücaəti bir daha təsdiqləndi. Şuşanın azad olunması təkcə hərbi qələbə deyil, həm də mənəvi dirçəliş, milli qürurun təcəssümü idi.

**Zəfərin müəllifi - xalq və onun lideri**

Bu tarixi qələbə Azərbaycan dövlətçiliyinin ən mühüm mərhələsi kimi yadda qalacaq. Qələbənin əsas səbəbləri arasında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, ordumuzun peşəkarlığı, xalqın dövlətinə və ordusuna sonsuz inamı dayanır. Ölkəmizin illər boyu həyata keçirdiyi ordu quruculuğu siyasəti, hərbi-texniki modernləşmə, iqtisadi güclənmə və diplomatik fəaliyyət bu tarixi uğurun əsas zəminini yaratdı.

44 günlük müharibə dövründə xalqımız bir yumruq kimi birləşdi. Cəbhədə vuruşan əsgərlərə arxa cəbhədəki milyonlarla insan dəstək oldu. Hər ev, hər ailə bir səngərə çevrildi. Xalq öz Prezidentinin, ordusunun və dövlətinin yanında oldu. Bu birliyə qarşı heç bir güc dura bilmədi.

**Şəhidlərimizin ölməzliyi - Zəfərin mənəvi sütunu**

Bu qələbə böyük qəhrəmanlıqların, fədakarlıqların nəticəsidir. Vətən uğrunda canından keçən şəhidlərimiz, ölməz adlarını xalqımızın yaddaşına yazdılar. Onların qəhrəmanlığı sayəsində bu torpaqlarda azadlıq və ədalət bərqərar oldu. Hər bir şəhidin ruhu qarşısında baş əyir, onların ailələrinə dərin ehtiram göstəririk. Zəfər Günü həm də şəhidlərimizin xatirəsinə ehtiram günüdür.

**Zəfərdən doğan yeni dövr - dirçəliş və quruculuq mərhələsi**

Zəfər Günü təkcə hərbi qələbənin yox, həm də yeni dövrün başlanğıcının simvoludur. Bu gün işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Şuşa, Füzuli, Ağdam, Zəngilan və digər rayonlarda yollar, məktəblər, xəstəxanalar, hava limanları inşa edilir. Qarabağa həyat qayıdır, Böyük Qayıdış proqramı gerçəkləşir. Bu, Zəfərin davamı, Azərbaycanın yenidən doğuluşudur.

**Zəfər Günü - gələcək nəsillərə qürur mirası**

8 Noyabr Zəfər Günü artıq Azərbaycan tarixinin ayrılmaz parçasıdır. Bu gün hər bir vətəndaşın, xüsusilə gənc nəslin milli kimliyini, vətən sevgisini və dövlətə sədaqət hissini gücləndirir. Zəfər Günü gələcək nəsillərə “Vətən sevgisi, birlik və inamla hər bir çətinliyin öhdəsindən gəlmək olar” mesajını verir.

Bu möhtəşəm qələbə Azərbaycan xalqının tarixi yaddaşında əbədi yaşayacaq, onun qürur mənbəyi olacaq.

Bu gün üçrəngli bayrağımız Qarabağ səmasında dalğalanır. Şuşada, Xankəndidə, Laçında, Zəngilanda azan səsləri eşidilir. Bu səslər zəfərin, ədalətin və sülhün səsidir.

8 Noyabr - Zəfər Günü hər bir azərbaycanlının qəlbində azadlıq, qürur və milli birliyin bayramıdır.

Yaşasın Azərbaycan!
Yaşasın Müzəffər Ordumuz!
Qarabağ Azərbaycandır!

**Şəfa ATAKİŞİYEVA**
**Qəbələ rayon prokurorluğunun müstəntiqi, III dərəcəli hüquqşünas.**

# Şəhid ucalığı

Zəfər bayramı ərəfəsində general-mayor, şəhid Polad Həşimovun həyat yoldaşı və qızı rayonumuzda olmuş, Qəbələdə keçirilən tədbirdə iştirak etmişlər. Onlar Şəhidlər xiyabanında şəhidlərə aid lövhələr üzərinə tər güllər düzmüş, həmçinin şəhid ailəsini ziyarət etmişlər. Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru, şəhid Polad Həşimovun həyat yoldaşı Ofelya xanım və qızı Aybəniz şəhid Məhəmməd Qarayevin evini ziyarət ediblər. Görüş zamanı şəhidimizin əziz xatirəsi dərin hörmət və ehtiramla anılıb, ailəsi ilə səmimi söhbət aparılıb.



Bu ziyarət bir daha göstərdi ki, şəhidlik - Vətən sevgisinin, mərdliyin və ucalığın ən ali zirvəsidir.

Onların xatirəsi daim qəlblərdə yaşayacaq!

**Şəhla XƏLİLQIZI.**
**“Qəbələ səsi”nin ştatdankənar müxbiri.**

# Turizmin inkişafı

Qəbələ Regional Turizm Şurası İşçi Qrupunun birinci görüşü keçirilib. Görüşdə turizm şurasının əhatə etdiyi sahələr üzrə fəaliyyət göstərən dövlət qurumlarının yerli nümayəndələri, eləcə də turizm sahəsi ilə birbaşa və ya dolayısı ilə bağlı olan dövlət və özəl sektor təmsilçiləri iştirak ediblər. Görüşdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək şuranın yaradılmasının regionun sosial-iqtisadi inkişafına və əhalinin rifahının yüksəldilməsinə töhfə verəcəyini vurğulamış və şuranın işinə uğurlar arzulamışdır. Dövlət Turizm Agentliyinin sədrinin müşaviri və şuranın sədri Kənan Quluzadə çıxışında regional turizm şuralarının yaradılmasının məqsədi və onların fəaliyyətini tənzimləyən normativ-hüquqi baza barədə məlumat vermiş, bu təşəbbüsün dövlət strukturları ilə özəl sektor arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə və turizm sahəsində effektiv əməkdaşlığın formalaşmasına xidmət edəcəyini qeyd etmişdir. Həmçinin regionda turizm infrastrukturunun təkmilləşdirilməsi, xidmət keyfiyyətinin artırılması və yerli icmaların turizm fəaliyyətinə cəlb edilməsi üzrə təqdimatlar edilmiş, eləcə də növbəti mərhələdə həyata keçiriləcək layihələrin əsas istiqamətləri razılaşdırılmışdır.

*1 noyabr kənd təsərrüfatı işçiləri günüdür*

# Kənd təsərrüfatı ölkənin gələcəyinin təminatçısıdır

Ulu Öndər Heydər Əliyev kənd təsərrüfatını Azərbaycanın iqtisadi əsaslarından biri sayaraq, “torpaqlarımız kənd təsərrüfatı istehsalının artırılmasına yönəldilməlidir” demişdi.

Bu ideyanın davamı olaraq, cənab Prezident İlham Əliyev kənd təsərrüfatını prioritet sahə elan edib və bu istiqamətdə böyük dövlət proqramları həyata keçirilir. Azərbaycanın kənd təsərrüfatı sahəsi Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf xəttinə əsaslanaraq, bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında yeni mərhələyə qədəm qoyub. Dövlətimizin başçısının “Kənd təsərrüfatı Azərbaycanın dayanıqlı gələcəyinin əsas təminatçısıdır” sözləri hər bir fermerin əməyinə verilən qiymətin göstəricisidir. Kənd təsərrüfatı hər zaman ölkəmizin dayanıqlı inkişafının əsas sütunlarından biri olmuşdur. Ulu Öndərimiz Heydər Əliyev kənd təsərrüfatının inkişafını milli siyasətin prioriteti kimi qiymətləndirmiş, fermerlərin və kənd təsərrüfatı işçilərinin rifahına xüsusi diqqət göstərmişdir. O, demişdir: “Kənd təsərrüfatı ölkənin gücüdür, kəndlilərin əməyi isə milli sərvətimizdir.” Ulu Öndərimizin rəhbərliyi ilə aparılan islahatlar, torpaq siyasətində tətbiq olunan yeniliklər və aqrar sahədə infrastruktur layihələri kənd təsərrüfatının hər sahəsini gücləndirmiş, ölkənin ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə böyük töhfə vermişdir.

Cənab Prezident İlham Əliyev kənd təsərrüfatına göstərdiyi diqqət və qayğı ilə bu sahəyə yeni nəfəs gətirmişdir. Dövlət proqramları çərçivəsində subsidiyalar, müasir aqrar texnologiyaların tətbiqi, suvarma sistemlərinin modernləşdirilməsi və fermerlərin sosial müdafiəsinin gücləndirilməsi sahədə əhəmiyyətli nəticələr vermişdir. Cənab Prezidentin təşəbbüsü ilə həyata keçirilən kənd təsərrüfatının inkişafına dair strateji proqramlar ölkəmizdə məhsuldarlığın artmasına, kənd yerlərində həyat səviyyəsinin yüksəlməsinə və ixrac potensialının genişlənməsinə şərait yaratmışdır.

Ölkəmizdə kənd təsərrüfatı sahəsində həyata keçirilən bütün bu tədbirlər, Ulu Öndərimizin uzaqgörən siyasəti və Prezidentimizin davamlı dəstəyi bizlər üçün həm böyük məsuliyyət, həm də stimul mənbəyidir. Bu diqqət sayəsində biz hər gün daha böyük nəticələr əldə etmək, sahədə innovasiyaları tətbiq etmək və məhsuldarlığı artırmaq imkanına sahibik.



Bu diqqət və qayğının nəticəsidir ki, bu gün Qəbələ rayonunda kənd təsərrüfatı sektoru dayanıqlı inkişaf yolundadır.

Bu prosesdə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzi mühüm əlaqələndirici rol oynayır. Fermerlərə subsidiya, texniki yardım və maarifləndirmə istiqamətində dayanıqlı dəstək göstərilir. Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzi kənd təsərrüfatı işçilərinə dəstək olmaq, onların qarşılaşdığı çətinlikləri aradan qaldırmaq və dövlət proqramlarını yerli səviyyədə həyata keçirmək istiqamətində fəal işləyir. Fermerlər üçün maarifləndirmə tədbirləri və gənc fermerlər üçün təlimlər təşkil olunur. Bu, dövlətin kənd adamına qayğısının bir daha bariz göstəricisidir.

Əziz həmkarlar, sizin hər birinizin zəhməti və peşəkarlığı kənd təsərrüfatımızın uğurunu təmin edir. Bitkiçilik, heyvandarlıq, aqrar texnologiyalar və digər sahələrdə göstərdiyiniz fədakarlıq ölkəmizin iqtisadi gücünə, ərzaq təhlükəsizliyinə və kənd yerlərində həyat səviyyəsinin yüksəlməsinə birbaşa təsir edir.

Bu gün biz həm də yeni çağırışlara cavab verməliyik. Müasir texnologiyaların tətbiqi, əkin sahələrinin səmərəli idarə olunması, kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması sahəsində sizin bilik və təcrübənizə böyük ehtiyac var. Hər birimiz öz işimizdə məsuliyyət daşıyırıq və birgə fəaliyyətimizlə Azərbaycanın aqrar sahəsini daha da gücləndirə bilərik.

Bu münasibətlə sizləri bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, uğurlar və peşə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq. Gəlin, gələcəkdə də əzmlə çalışaraq kənd təsərrüfatımızı daha da inkişaf etdirək, ölkəmizin ərzaq təhlükəsizliyini möhkəmləndirək və yeni nəsillər üçün dayanıqlı, müasir aqrar sistem quraq.

Bu gün torpaqla nəfəs alan, hər gün alın tərinin gücü ilə Vətənə bərəkət bəxş edən insanlarımızın bayramıdır. Bu bayram münasibətilə kənd təsərrüfatı işçilərinə möhkəm can sağlığı, bol məhsul və yeni uğurlar arzulayırıq. Qoy Qəbələnin torpağı hər il daha bərəkətli, zəhmətiniz isə hər zaman dəyərləndirilən olsun.

Bayramınız mübarək, əziz həmkarlar!

**Namiq AĞAYEV,**
**Qəbələ DAİM-in direktoru.**